(əvvəli ötən sayımızda)

Nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində yerləşməsi

I Normal hərəkət zamanı nəqliyyat vasitələrinin sürücüləri vəziyyətdən asılı olaraq, yolun hərəkət hissəsinin sağ kənarı ilə hərəkət etməlidirlər.

II Hər istiqamətdə azı iki hərəkət zolağı olan ikitərəfli hərəkət yollarında qarşıdan hərəkət üçün nəzərdə tutulmuş tərəfə keçmək qadağandır.

III Üç hərəkət zolağı olan ikitərəfli hərəkət yollarında nəqliyyat vasitələri yolun hərəkət hissəsinin mərkəzində yerləşən və hər iki istiqamət üçün sol kənar hesab olunan orta zolağa keçməməlidirlər. Orta zolağa keçməyə yalnız ötmə, yandan keçmə və solа, yaxud geriyə dönmə üçün icazə verilir.

IV Eyni istiqamətdə azı iki hərəkət zolağı olan yolda tramvay yolları olduqda, tramvay yollarına çıxmaq qadağandır. Başqa yollarda nəqliyyat vasitələrinin sürücüləri tramvay yaxınlaşarkən, imkan olan kimi tramvay xəttini boşaltmalıdırlar.

V Eyni istiqamətdə üç və daha çox hərəkət zolağı olan yolda nəqliyyat vasitələrinin bütün hərəkət zolaqlarını tutduqları intensiv hərəkət vaxtı asta gedən nəqliyyat vasitələri yalnız sağ kənar zolaqla hərəkət etməli, ağır çəkili nəqliyyat vasitələri isə həmin istiqamətdə sol kənar hərəkət zolağını tutmamalıdır; hərəkət istiqamətini solа dəyişmək və ya dönmə halları istisna təşkil edir.

VI Nəqliyyat vasitələrinin sürücüləri intensiv hərəkət vaxtı yalnız solа və ya sağa dönmək, ötməyə hazırlaşmaq, hərəkəti düzünə istiqamətdə davam etdirmək, dayanacağa və ya duracağa çıxmaq üçün olduqları hərəkət zolağını qaydalara əməl etməklə dəyişə bilərlər.

YOL HƏRƏKƏTİ QAYDALARI, YOL HƏRƏKƏTİ İŞTİRAKÇILARININ ƏSAS VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

Hərəkət sürəti və nəqliyyat vasitələri arasında ara məsafəsi

I Sürücü hərəkətin intensivliyini, nəqliyyat vasitəsinin, yükün xüsusiyyətlərini və vəziyyətini, yol və meteoroloji şəraiti, xüsusən hərəkət istiqamətində görmə şəraitini nəzərə almaqla, nəqliyyat vasitəsini müəyyən olunmuş sürət məhdudiyyətindən çox olmayan sürətlə sürməlidir. Sürücü hərəkət üçün təhlükə yarandığını gördükdə, nəqliyyat vasitəsinin sürətini tam dayanma həddinə qədər azaltmaq üçün mümkün olan tədbirləri görməlidir.

II Nəqliyyat vasitələri:

1) yaşayış məntəqələri daxilində - saatda 60 kilometrdən çox olmayan sürətlə (səlahiyyətli orqanlar yolun müəyyən sahələrində daha yuxarı hədd müəyyən edə bilərlər, lakin bu hədd saatda 90 kilometrdən çox ola bilməz);

2) minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda: avtomagistrallarda - saatda 110 kilometrdən çox olmayan sürətlə; başqa yollarda - saatda 90 kilometrdən çox olmayan sürətlə;

3) şəhərlərarası və xüsusilə kiçik avtobuslar və motosikletlər yaşayış məntəqələrindən kənarda bütün yollarda saatda 90 kilometrdən çox olmayan sürətlə;

4) digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda: avtomagistrallarda-saatda 90 kilometrdən çox olmayan sürətlə; başqa yollarda-saatda 70 kilometrdən çox olmayan sürətlə;

5) banında adamlar daşıyan yük avtomobilləri - saatda 50 kilometrdən çox olmayan sürətlə;

6) yedəyində mexaniki nəqliyyat vasitələri aparan nəqliyyat vasitələri - saatda 50 kilometrdən çox olmayan sürətlə;

7) təhlükəli, ağır çəkili və iriqabaritli yüklər daşıyan nəqliyyat vasitələri - daşıma şərtləri razılaşdırılarkən müəyyən edilmiş həddən çox olmayan sürətlə hərəkət etməlidirlər.

III Sürücü sürətdən və hərəkət şəraitindən asılı olaraq elə ara məsafəsi seçməlidir ki, qabaqda gedən nəqliyyat vasitəsi sürəti kəskin azaltdıqda və ya gözlənilmədən dayandıqda, onunla toqquşmanın qarşısını almaq mümkün olsun.

IV Yaşayış məntəqələrindən kənarda ötməni asanlaşdırmaq məqsədilə, asta gedən, ağır yüklü və ya uzun nəqliyyat vasitələrinin sürücüləri özlərindən qabaqda gedən nəqliyyat vasitəsi ilə kifayət qədər ara məsafəsi saxlamalıdırlar ki, onları ötən nəqliyyat vasitələri ötməni tam təhlükəsiz şəraitdə başa çatdırsınlar. Əgər sürücü ötmə əməliyyatına başlamışdırsa və ötürsə, bu tələbə əməl olunmur.

V Üstün hərəkət rejimli nəqliyyat vasitələri zərurətdən irəli gələn sürətlə hərəkət edə bilərlər. Göstərilən nəqliyyat vasitələrinin sürücüləri yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçün hər cür tədbir görməlidirlər.

VI Sürücülərə:

1) nəqliyyat vasitəsini onun texniki xarakteristikası üzrə müəyyən edilmiş maksimum sürətdən artıq sürmək;

2) lüzumsuz olaraq həddindən az sürətlə hərəkət etməklə başqa nəqliyyat vasitələri üçün maneə yaratmaq;

3) yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün lazım olan hallar istisna edilməklə, nəqliyyat vasitəsini sərt tormozlamaq qadağandır.

Ötmə və qarşılıqlı keçmə

I Ötməyə başlamazdan əvvəl sürücü əmin olmalıdır ki:

1) girmək istədiyi hərəkət zolağı ötmə üçün kifayət edəcək məsafədə boşdur və bu manevr ilə o, qarşıdan gələn və bu zolaqda gedən nəqliyyat vasitələri üçün maneə yaratmayacaq;

2) eyni zolaqda arxasınca gələn nəqliyyat vasitəsi onu ötməyə başlamayıb, özündən qabaqda gedən nəqliyyat vasitəsi isə ötmə, solа dönmə, yerdəyişmə barədə siqnal vermir;

3) qarşıdan gələn nəqliyyat vasitələri üçün təhlükə və ya maneə yaratmadan çıxmaq istədiyi hərəkət zolağı kifayət edən məsafədə boşdur və iki nəqliyyat vasitəsinin nisbi sürəti ötməni kifayət qədər qısa müddətdə başa çatdırmağa imkan verəcəkdir.

II Eyni istiqamətdə hərəkət üçün iki və daha artıq zolaq olmadığı halda relssiz nəqliyyat vasitəsini yalnız sol tərəfdən ötməyə icazə verilir. Lakin sürücüsü solа dönmə siqnalı verən və manevrə başlayan nəqliyyat vasitəsini sağ tərəfdən ötmək lazımdır.

III Ötmənin sonunda (sağ tərəfdən ötməyə icazə verilən hallardan başqa) sürücü əvvəl tutduğu hərəkət zolağına qayıtmalıdır. Lakin eyni istiqamətdə hərəkət üçün iki və daha artıq zolaq olduqda, ötən sürücü əgər əvvəl tutduğu zolağa qayıdıb dərhal yenidən ötməyə başlamalı olacaqsa və onun arxasınca daha yüksək sürətlə gələn nəqliyyat vasitələri üçün manə yaratmayacaqsa, sol zolaqda qalə bilər.

IV Hərəkat sürətini artırmaqla və ya başqa hərəkətlərlə ötən nəqliyyat vasitəsinin sürücüsünə maneçilik törətmək qadağandır.

V Ötmə:

1) nizamlanan yolayrıclarında - əks istiqamətli hərəkət zolağına keçməklə və nizamlanmayan yolayrıclarında - baş yol olmayan yolla hərəkət etdikdə (hərəkətin dairəvi olduğu yolayrıclarında ötmə, yanqoşqusu olmayan ikitərəfli nəqliyyat vasitələrini ötmə və icazə verilmiş sağdan ötmə istisna edilməklə);

2) piyada keçidlərində - piyadalar olduqda;

3) dəmiryol keçidlərində və onlara 100 metrdən az qaldıqda;

4) ötən və ya yanından keçən nəqliyyat vasitəsini;

5) yoxuşun axırında və yolun məhdudiyyətli görünüşlü digər sahələrində - əks istiqamətli hərəkət zolağına çıxmaqla;

6) tunellərdə qadağandır.

VI Yaşayış məntəqələrindən kənarda asta gedən və ya iriqabaritli nəqliyyat vasitəsini ötmək çətinləşdikdə, sürücü nəqliyyat vasitəsini mümkün qədər sağa çəkməli, lazım gəldikdə isə arxasında yığılmış nəqliyyat vasitələrini buraxmalıdır.

VII Qarşılıqlı keçmə çətinləşən hallarda - hansı sürücü tərəfdə maneə varsa, həmin sürücü yol verməlidir. 1.13 və 1.14 nişanları ilə işarələnmiş yerlərdə maneə olduqda, enişlə aşağı hərəkət edən nəqliyyat vasitəsinin sürücüsü yoxuşla yuxarı gedən nəqliyyat vasitəsinə yol verməlidir.

Avtomobil və zirehli texnika şöbəsi

(davamı gələn sayımızda)

İDMAN

99713 SAYLI HƏRBİ HİSSƏ BİRİNCİ YERƏ LAYİQ GÖRÜLÜB

"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən yanvarın 28-29-da 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda ağırlıq çəki daşı qaldırma üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən və hərbi hissələrdən 18 komanda, 84 nəfər hərbi qulluqçu iştirak etmişdir.

Şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub.

Ağırlıq çəki daşı qaldırma üzrə:

65 kq

I yer - əsgər Vəliməmməd Vəlizadə (99713 saylı hərbi hissə)
II yer - baş çavuş Akif Müslümov (67987 saylı hərbi hissə)
III yer - çavuş Eşqin Xəlilov (17074 saylı hərbi hissə)

70 kq

I yer - əsgər Anar Allahverdiyev (99713 saylı hərbi hissə)
II yer - baş çavuş Əsgər Əhmədov (16075 saylı hərbi hissə)
III yer - leytenant Nadir Şərifov (16075 saylı hərbi hissə)

75 kq

I yer - çavuş Elvin Dövlətov (99713 saylı hərbi hissə)
II yer - baş əsgər Amil Əliyev (67987 saylı hərbi hissə)
III yer - kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə)

80 kq

I yer - gizir Elnur Abbasov (16075 saylı hərbi hissə)
II yer - çavuş Əliş Əkbərov (16073 saylı hərbi hissə)
III yer - baş leytenant Rəşad Bağıyev (17074 saylı hərbi hissə)

85 kq

I yer - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə)
II yer - çavuş Cavid Hacıyev (16073 saylı hərbi hissə)
III yer - çavuş Ümid İsmayılov (12318 saylı hərbi hissə)

90 kq

I yer - əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə)
II yer - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)
III yer - əsgər İsmayıl Məmədov (16073 saylı hərbi hissə)

+ 90 kq

I yer - leytenant Rəvan Abışov (25033 saylı hərbi hissə)
II yer - baş çavuş Elşən İsmayılov (17072 saylı hərbi hissə)
III yer - gizir Rasim Yaxin (99713 saylı hərbi hissə)

Qol güləşi üzrə:

65 kq

I yer - gizir Elnur Vəliyev (99713 saylı hərbi hissə)
II yer - leytenant Məcid Səfibəyli (AHM)
III yer - baş çavuş Akif Müslümov (67987 saylı hərbi hissə)

70 kq

I yer - əsgər Ramil Əliyev (16077 saylı hərbi hissə)
II yer - əsgər Qumral Məlikov (25031 saylı hərbi hissə)
III yer - əsgər Elmir Qocayev (25031 saylı hərbi hissə)

75 kq

I yer - baş çavuş Əfqan Zaxmayev (16077 saylı hərbi hissə)
II yer - çavuş Samir Davidov (17072 saylı hərbi hissə)
III yer - kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə)

80 kq

I yer - əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə)
II yer - əsgər Məmmədsəid Hacıyev (17072 saylı hərbi hissə)
III yer - baş çavuş Rizvan Məhərov (16077 saylı hərbi hissə)

85 kq

I yer - əsgər Ceyhun Balakişiyev (16077 saylı hərbi hissə)
II yer - əsgər Kamran Qarayev (16075 saylı hərbi hissə)
III yer - çavuş Fuad Abışov (25033 saylı hərbi hissə)

90 kq

I yer - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)
II yer - çavuş Rasif Kübərov (67987 saylı hərbi hissə)
III yer - çavuş Ruslan Mürşüdov (17074 saylı hərbi hissə)

+ 90 kq

I yer - çavuş Faiq Abbasov (16075 saylı hərbi hissə)
II yer - gizir Tural Mustafayev (17072 saylı hərbi hissə)
III yer - baş çavuş Elşən İsmayılov (17072 saylı hərbi hissə)

Komanda üzrə 99713 saylı hərbi hissə birinci yerə layiq görülüb. 16075 və 16077 saylı hərbi hissələr isə müvafiq olaraq 2-ci və 3-cü yerlərə layiq görülüblər.

HƏRBİ XƏBƏRLƏR

"Heckler&Koch" şirkətinin yeni avtomatı – HK433

Almaniyanın "Heckler&Koch" şirkəti HK433 adı verilmiş yeni avtomatının təqdimatını keçirib, "AzeriDefence"nin məlumatına göre, bu barədə Almaniyanın "Europaische Sicherheit & Technik" jurnalının son sayında darc olunmuş xəbərdə bildirilib.

HK433 tüfəngi Almaniya Ordusunun (Bundeswehr) G36 tüfəngini əvəzləmək üçün yaradılıb. HK433 qısagedişli qaz piston sistemi ilə işləyir.

Tüfəngin gövdəsi və qundağı yüksək möhkəmliyə malik alüminium ərintidən hazırlanıb.

Uzunluğu nizamlanan HK433 tüfəngi həm sağ, həm də sol əllə istifadə üçün əlverişlidir.

HK433 tüfəngi standart 5,56×45 mm çaplı patronlardan atəş açacaq. Mexanizmlər və lülələri dəyişməklə eyni silahdan 7,62×51 mm, 300 Blackout və 7,62×39 mm çaplı patronlarla da atəş açmaq mümkün olacaq.

"Heckler&Koch" şirkəti HK433 tüfəngini ilk növbədə NATO ölkələrinə satmağı planlaşdırır.

Son nəsil "Armata" tankının seriyalı istehsalına başlamaq qərarı verilib

Rusiyanın yeni nəsil T-14 "Armata" yeni döyüş tankının seriyalı istehsalına 2018-ci ildən başlanacaq, "AzeriDefence"nin məlumatına göre, bu barədə "Uralvaqonzavod" (UVZ) şirkətinin direktoru Oleq Sienko mətbuata açıqlamasında bildirib.

O, Sienko deyib ki, "Armata"nın əsas testləri uğurla yekunlaşıb və digər mərhələlərin həyata keçirilməsinə o qədər də ehtiyac yoxdur.

Xatırladaq ki, T-14 – "Armata" İkinci dünya müharibəsindən sonra istehsalına başlanan tankların üçüncü nəsli hesab olunur. İlk dəfə olaraq, tankın ekipajı döyüş komplektlərindən kənarda-zirehli kapsula da yerləşdirilib. Maşının üzərinə xüsusi örtüyün çəkilməsi tankın radiolokasiya sistemləri ilə görüntüsünü məhduldaşdırır. Tank aktiv və dinamik müdafiə sistemi ilə yaxşı təchiz olunub. T-14 məsafədən idarə olunan döyüş modulu-topla və avtomatik mərmidoldurma qurğusu ilə də təchiz edilib. Maşının qülləsində və korpusunda təhlükəni görən və ona reaksiya verən optik-elektron sistemi qurulub. T-14-ün özəlliklərindən biri də səkkizqat şassi ilə təchiz olunmasındadır. Buna qədər isə tanklar altıqatlı şassi ilə istehsal olunub. Bu platforma isə maşının keçmək imkanını, gücünü və sürətini artırır.

Tank modern radiolokasiya sistemi ilə təchiz olunub. Bu sistem eyni vaxtda 40 yerüstü və 25 hava hədəflərini izləmək imkanına malikdir. Tank yivsiz 125 mm-lik topla təchiz olunub. Bu top

mövcud olan istənilən mərmini, hətta idarə olunan raketi də ata bilir. Topdan atılan mərmi 8 km-dən artıq məsafədə hədəfi məhv edir.

T-14-ün qülləsi boşdur. Tank istehsalı sahəsində belə bir təcrübənin tətbiqinə yeni başlanıb.

Döyüş meydanını müşahidə etmək üçün 360 dərəcə görüntü yaradan kamera ilə təchiz olunan T-14 ən kəskin hava şəraitində və qaranlıqda hərəkət edə bilir.

Maşın 12 silindirli, X-şəkilli 1500 at gücü olan dizel mühərriklə təchiz olunub. 48 ton çəkisi olan bu tankın 1500 at gücü olan mühərriklə maksimal sürəti saatda 90 km-dir. Tam yanacağı ilə gediş ehtiyatı 500 kilometrdir. Tankın hərəkətverici sistemində də dönmə və yumşaqlığı təmin edən hibroaktiv qurğu quraşdırılıb.

T-14-də V-şəkilli zirehli mina əleyhinə sistem və uzaqdan idarə olunan minaaxtaran qurğu quraşdırılıb. Bu sistem aşkar etdiyi minanı məhv edir.

Allah rəhmət eləsin

Daxili Qoşunlar Komandanlığı və şəxsi heyəti 17071 saylı hərbi hissənin komandiri polkovnik-leytenant Ramiq Salayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti leytenant Elmir Sadıqova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

№ 03 (494)
15 fevral
2017-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

ƏSGƏR

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

Fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Belçika Krallığına səfərə gəlib.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ

Brüsselin Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Avropa İttifaqının yüksək səviyyəli rəsmi şəxsləri qarşıladılar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Linden ilə görüşüb.

Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti Rene Van der Linden Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşməkdən məmnun olduğunu dedi. Vurğuladı ki, dövlətimizin başçısının Brüsselə səfər proqramı çox zəngindir və səfər zamanı Avropa İttifaqının yüksək səviyyəli rəhbər şəxsləri ilə görüşləri mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi baxımından bu səfərin önəmini vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsini ziyarət ediblər.

Vaterlo şəhərinin meri Florans Röter Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.

Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.

Ötən il fevralın 18-də açılışı olan bu abidənin ucaldılması Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində mümkün olub. Şəhərin mərkəzi parkında ucaldılmış abidə Azərbaycanın Xalq Rəssamı Tahir Salahovun rəhbərliyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən hazırlanıb. Abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Brüsseldə Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini ilə işçi səhər yeməyi edib.

Ötən il Azərbaycana səfərini məmnunluqla xatırlayan Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Federika Moqerini əməkdaşlığımızın daha da möhkəmləndirilməsi, əlaqələrimizin bundan sonra da genişləndirilməsi baxımından Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfərinin əhəmiyyətini qeyd etdi, Avropa İttifaqında dövlətimizin başçısının keçirdiyi görüşlərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmli olduğunu bildirdi. Azərbaycan ilə əməkdaşlığın Avropa İttifaqı üçün böyük önəm daşıdığını vurğulayan Federika Moqerini "Cənub Qaz Dəhlizi" layihəsinin Avropa İttifaqı üçün böyük əhəmiyyətə malik olduğunu vurğuladı.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri, energetika, nəqliyyat, təhlükəsizlik, regional və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Fevralın 6-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belçika Kralı Filipin görüşü olub.

Görüşdə Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından əminlik ifadə olundu. Dövlətimizin başçısının bu səfərinin həm Azərbaycan-Belçika ikitərəfli münasibətlərinin genişlənməsi, həm də ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminlik bildirildi. Prezident İlham Əliyev Belçika şirkətlərini Azərbaycanın iqtisadiyyatının inkişafında iştiraka dəvət etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Brüsseldə Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji, təhlükəsizlik, atraf mühit, nəqliyyat və digər sahələrdə səmərəli əməkdaşlığın aparıldığı, əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edildi. Vurğulandı ki, dövlətimizin başçının bu səfəri əlaqələrimizin daha da genişlənməsinə töhfəsini verəcək.

Prezident İlham Əliyevin fevralın 6-da Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşü olub.

Sonra dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının prezidenti işçi lanç ediblər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk mətbuata birgə bəyanatla çıxış ediblər.

Azərbaycan Prezidenti fevralın 6-da Brüsseldə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqdan məmnunluq bildirildi, əlaqələrin bundan sonra da inkişaf etdirilməsinə əminlik ifadə olundu.

Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına səfəri başa çatıb.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Fevralın 6-da respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov BMT-nin ölkəmizə yeni təyin olunmuş rezident-əlaqələndiricisi Qulam İsakzaini və adıçəkilən qurumun Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri Furio de Angelisi qəbul edib.

Qonaqları salamlayan nazir yeni təyinatlar münasibətilə onları təbrik edib, BMT-nin ölkəmizdə fəaliyyət göstərən strukturları ilə Daxili İşlər Nazirliyi arasındakı sıx əməkdaşlıq əlaqələrinin mövcudluğunu xatırladıb, fəaliyyətləri müddətlərində bu əməkdaşlığın daha da dərinləşəcəyinə ümidvar olduğunu bildirib.

Respublikamızın artıq 25 il müddətində Birləşmiş Millətlər Təşkilatının üzvü olduğunu nəzərə çatdıran Daxili İşlər Naziri dünyanın bu ən mötəbər beynəlxalq təşkilatı ilə əlaqələrin genişləndirilməsi, onun çoxsaxalı əməkdaşlığa çevrilməsi və Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə öz layiqli yerini tutması üçün olduqca fəal iş aparıldığını, qlobal sülh və təhlükəsizliyin qorunması üçün məsul olan bu qurumun daha səmərəli fəaliyyət göstərməsinə respublikamızın öz töhfəsini verdiyini vurğulayıb.

Daha sonra qonaqlara müstəqilliyin ilk illərində respublikamızdakı gərgin ictimai-siyasi və kriminogen durumla bağlı geniş məlumat verilib, dövlətçiliyin qorunub-saxlanılmasında, daxili sabitliyin bərpa olunub möhkəmləndirilməsində müstəsna rolu olmuş Ulu Önder Heydər Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlardan, həyata keçirilən tədbirlərdən, bütün bunların nəticəsi olaraq qazanılan uğurlardan danışıldı, bu siyasətin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam və inkişaf etdirildiyi vurğulanıb. Bu gün həm ölkə vətəndaşları, həm də əcnəbilərin təhlükəsiz şəraitdə yaşayıb işləmələri üçün respublikamızda lazımi şəraitin yaradıldığı xüsusi qeyd edilib.

Ötən əsrin 90-cı illərinin ortalarından ölkəmizdə Avropaya inteqrasiya siyasətinin aparıldığını, demokratikləşmə prosesinin digər dövlət qurumları kimi Daxili İşlər Nazirliyindən də yan keçmədiyini nəzərə çatdıran cənab Ramil Usubov polisin fəaliyyətini tənzimləyən yeni qanunların qəbul edildiyini, bu qanunların işlənib-hazırlanmasında bir sıra inkişaf etmiş Qərb dövlətlərinin, mötəbər beynəlxalq qurumların ekspertlərinin də yaxından iştirak etdiklərini, həmin qanunvericiliyin xidməti fəaliyyətdə tətbiqinin böyük önəm daşıdığını bildirib.

Görüşdə Azərbaycanın BMT-nin terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə, qanunsuz miqrasiyaya və insan alverinə qarşı mübarizə üzrə müvafiq Konvensiya və protokollarının iştirakçısı olaraq, bu təşkilatın bir çox xüsusi qurum və orqanları ilə səmərəli əməkdaşlıq mübasibətlərinin davam etdiyi məmnunluqla vurğulanıb. Qeyd olunub ki, təkcə son 5 ildə respublikada və ayrı-ayrı xarici dövlətlərdə BMT-nin təşəbbüsü ilə keçirilən müxtəlif tədbirlərdə daxili işlər orqanlarının 500-dən çox əməkdaşı fəal iştirak edib.

Daxili İşlər Naziri rəhbərlik etdiyi qurumun insan və vətəndaş hüquq və azadlıqlarının təmini ilə bağlı ümumdövlət siyasətinin həyata keçirilməsinə, əməkdaşların peşə hazırlığı sisteminin təkmilləşdirilməsinə xüsusi önəm verildiyini, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində də əhəmiyyətli işlər görüldüyünü diqqətə çatdırıb.

Şəxsi heyətin peşəkarlığının daha da artırılmasından, müasir informasiya-kommunikasiya texnologiyalarının, elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin əməliyyat-xidməti fəaliyyətdə tətbiqindən danışan cənab Ramil Usubov hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, hüquq qaydasına riayət edilməsinə videonəzarətin həyata keçirilməsi, fasiləsiz və canlı izlənilməsi, fövqəladə vəziyyətlərə çevik reaksiya verilməsi funksiyalarının yerinə yetirilməsi məqsədilə Nazirlikdə "Təhlükəsiz Şəhər" Avtomatik İdarəetmə Sisteminin, "102" Zəng Mərkəzi sisteminin yaradıldığını xatırladıb. Bu qəbildən olan ən uğurlu layihələrdən biri kimi nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanı ilə 5 il öncə yaradılmış Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin - "ASAN" Xidmətin fəaliyyət göstərdiyi müddətdə vətəndaş məmnunluğunun təmin olunması sahəsində, yeni təsisatın korrupsiya, bürokratiya və digər bu kimi zərərli tendensiyalara qarşı mübarizədə ən təsirli vasitələrdən olduğunu xüsusilə qeyd edib.

Problemlərə toxunularkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qanunsuz miqrasiyanın diqqət mərkəzində dayandığı və belə qlobal xarakterli təhlükəli hallarla effektiv mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi vurğulanıb.

Qəbula və ətraflı məlumata görə təşəkkür edən cənab Qulam İsakzai və Furio de Angelis fəaliyyət göstərdikləri qısa müddətdə ölkəmizdə böyük quruculuq işlərinin getdiyinin, iqtisadiyyatın durmadan inkişaf etdiyinin şahidləri olduqlarını, Azərbaycanda təhlükəsizlik məsələlərinin uğurla həll olunduğunu, hüquq-mühafizə, o cümlədən polis orqanlarının bu istiqamətdə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiklərini xatırladıb, BMT-nin Azərbaycandakı strukturları ilə Daxili İşlər Nazirliyi arasında əməkdaşlığın bundan sonra daha da genişləndiyini səy göstərəcəklərini bildiriblər.

Səmimi və işgüzarlıq şəraitində keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANI XİDMƏTƏ YENİ QƏBUL OLUNMUŞ ƏSGƏRLƏRLƏ GÖRÜŞÜB

Fevralın 10-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidmətə yeni qəbul olunmuş əsgərlərin kazarma-məişət şəraiti, təchizatı, qidalanması və sağlamlıq durumunun vəziyyətinin yoxlanılması məqsədilə qoşunların Bakı şəhərində yerləşən "A" saylı hərbi hissəsində olub. Həmin gün Daxili Qoşunların Komandanının əsgərlərlə görüşü keçirilib.

Görüşdə general-leytenant Ş.Məmmədov çıxış edərək ordu quruculuğu sahəsində respublikada həyata keçirilən məqsədyönlü islahatlar, o cümlədən Daxili Qoşunların vəzifələri, yerinə yetirdiyi tapşırıqları xidmətə yeni qəbul olunmuş əsgərlərin diqqətinə çatdırıb.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Silahlı Qüvvələrimizin, eləcə də Daxili Qoşunların maddi-texniki bazasının

gücləndirilməsindən danışan Daxili Qoşunların Komandanı vurğulayıb ki, bu gün əsgər kimi sıralarımıza daxil olmuş müddətli həqiqi hərbi xidm

XİDMƏTİN YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİLİ ÜÇÜN HƏRTƏRƏFLİ ŞƏRAİT MÖVCUDDUR

Görülən işlər yalnız bir məqsədə: hərbi qulluqçuların peşə vərdişlərinin, eyni zamanda bilik və bacarıqlarının artırılmasına yönəlib

"Əsgər" qəzetinə material toplamaq məqsədilə 2017-ci ildə ilk xidməti ezamiyyətim Qəbələ rayonundakı 17071 saylı hərbi hissəyə oldu. Silsilə dağların əhatəsində yerləşən region qarın yağması ilə ağ örpəyə bürünmüş, füsünkar təbiətinə bir qədər də gözəllik qatmışdı.

"Havanın şaxtalı keçməsinə baxmayaraq, istər yay istirahəti, istərsə də qış sərgüzəşti axtaran turistlərin sevimli məkanına çevrilmiş Qəbələ rayonundakı ən vacib məsələlərdən biri daxili sabitliyin qorunub saxlanılmasıdır. Digər hüquq mühafizə qurumları ilə yanaşı, ictimai qaydanın qorunmasını və ictimai təhlükəsizliyini təmin edən Daxili Qoşunların şəxsi heyəti də üzərinə düşən bu və ya digər tapşırıqları müvəffəqiyyətlə həyata keçirir".

Bu fikirləri 17071 saylı hərbi hissənin komandiri polkovnik-leytenant Ramiq Salayev manimlə söhbət əsnasında səsləndirdi. Polkovnik-leytenant R.Salayev bildirdi ki, əsas məqsəd döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasıdır və bunun üçün bir sıra tədbirlər həyata keçirilir. O, xüsusən hərbi qulluqçuların fiziki və atəş hazırlıqlarının diqqət mərkəzində saxlanıldığını dedi. Qeyd etdi ki, şəxsi heyətlə məşğələlərin təşkil olunub keçirilməsi üçün hərbi hissədə bütün lazımi şərait mövcuddur. Buna baxmayaraq, hərbi qulluqçuların maddi-tədris bazasının daha da artırılması məqsədilə əlavə olaraq iki sinif otağı (atəş hazırlığı sinfi, xüsusi vasitələrin təbiqi sinfi) və kəskin hava şəraiti olduqda qapalı məkanda idman tədbirlərinin keçirilməsi üçün idman zalı hazırlanır. Hərbi hissə komandiri görülən işlərin yalnız bir məqsədə: hərbi qulluqçuların peşə vərdişlərinin, eyni zamanda bilik və bacarıqlarının artırılmasına yönəldiyini bildirdi. O, burada şəxsi heyətin mənəvi-psixoloji durumunun da yüksək olmasının vacibliyini nəzərə çatdırdı. Bu istiqamətdə görülən işləri qənaətbəxş hesab edərək, hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Xalid Hüseynovun əməyini vurğuladı.

Komandirin tərbiyə işləri üzrə müavini şəxsi heyətin mənəvi-psixoloji durumundan danışarkən hərbi qulluqçularda ruh yüksəkliyinin günü-gündən artdığını və bu istiqamətdə aparılan işlərin davam etdirildiyini bildirdi. Onun sözlərinə görə, şəxsi heyətin yüksək nizam-intizamı xidmətin tələb olunan səviyyədə təşkilinə əlverişli şərait yaradır.

SAATDAR DAİMA AYIQ-SAYIQLIQ, ÇEVİKLİK, PRİNSİPİALLIQ NÜMAYİŞ ETDİRMƏLİDİR

Yüksək nizam-intizamı ilə fərqlənən bölmələrdən biri hərbi hissənin obyektlərinin etibarlı müdafiə və mühafizəsini həyata keçirən komendant bölüyüdür. Bölük komandiri baş leytenant Sərxan Qafarov bölüyün həyata keçirdiyi qarovul xidməti barədə danışdı. Bildirdi ki, xidmətin aparılmasında bir neçə vacib şərt var ki, onlar daima diqqətdə saxlanılmalıdır. O, ilk olaraq xidmətə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olmasının vacibliyini söylədi. Həmçinin, postda xidmət aparan saatdarın daima ayıq-sayıq xidmət etmək, fikrini yayındırmamaq xüsusiyyətlərini nümayiş etdirməsinin, o cümlədən silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmasının mühüm əhəmiyyət kəsb edən faktorlardan olduğunu bildirdi. Bölük komandiri xidmətin təşkili zamanı nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsinin də başlıca amil olduğunu qeyd etdi. Onun sözlərinə görə, yalnız bu halda hərbi hissənin obyektlərinin etibarlı mühafizəsindən danışmaq olar.

Xidmətə cəlb olunan şəxsi heyatin üzərlərinə düşən vazifələrin öhdəsindən layiqincə gəldiyini deyən baş leytenant S.Qafarov qarovul rəisi kimi baş çavuş Tural Səfərəliyevin fəaliyyətini müsbət qiymətləndirdi. Baş çavuş T.Səfərəliyev xidmətdə olarkən şəxsi heyatin asudə vaxtlarının səmərəli keçirilməsini, stolüstü oyunların təşkilini, o cümlədən onların vaxtı-vaxtında qidalanmasını diqqətdən kənarda saxlamır.

Qarovulun fəalları kimi qarovul rəisinin köməkçisi çavuş Daşqın Nəcəfli-nin, əsgərlər Pərviz Rəcəbəliyevin, Musa Paşayevin, Rəyal Süleymanovun, Əbdülali Ağazadənin, Kamal Quliyevin, Kamran Baxşəliyevin, Asim Novruzovun və Pərviz Mustafayevin adların çəkə bilərik.

BÖLMƏ ÜZƏRİNƏ DÜŞƏN BÜTÜN TAPŞIRIQLARI UĞURLA İCRA EDİR

Hərbi hissədə xidməti-döyüş fəaliyyətini müvəffəqiyyətlə yerinə yetirən bölmələrdən biri də təminat bölüyüdür. Bölmə üzərinə düşən bütün növ tapşırıqları uğurla icra edir. Qərargah kuryeri, rabitə növbətçisi, yeməkxana işçiləri, parkın gün növbətçisi və digər növ naryadları yerinə yetirən təminat bölüyünün şəxsi heyəti həvalə olunmuş vəzifələrə məsuliyyətlə yanaşır, peşəkarlıq səviyyələrinin artırılması istiqamətində daima öz üzərlərində çalışırlar. Təminat bölüyünün komandiri baş leytenant Müzabil Mehdiyev bölüyün cəlb olunduğu xidmətlər barədə danışarkən bildirdi ki, patrul heyətinə intizamlı, funksional vəzifələrini dərindən bilən, sağlam düşüncəyə malik hərbi qulluqçular cəlb olunur. Onun sözlərinə görə, şəxsi heyət xidmətə cəlb olunmamışdan öncə onlarla söhbətlər aparılır, təlimatlandırılır, bir daha mənəvi-psixoloji durumları yoxlanılır. O, hesab edir ki, psixoloji cəhətdən sağlam olan əsgər xidmətini qanunvericiliyin, ələcə də rəhbər sənədlərin tələbləri əsasında qurur. Belə olan halda isə hər hansı bir nöqsana yol vermədən söhbət gedə bilməz. Baş leytenant M.Mehdiyev şəxsi heyətdə mövcud olan ruh yüksəkliyini, o cümlədən nizam-intizamı bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Tural Qafarovun gərgin əməyinin nəticəsi kimi qiymətləndirdi.

Bölüyün şəxsi heyətinin cəlb olunduğu xidmətlərə gəldikdə isə avtomobil taqımı avtoparkda maşınların mühafizəsini təşkil edir, nəqliyyat vasitələrinin sazlığının və xidmətaparma yerində daxili səliqə-sahmanın qorunub saxlanılmasını həyata keçirir. Rabitə taqımından rabitə postuna təyin olunmuş hərbi qulluqçu rabitə xətlərinin sazlığını yoxlayır, alınan məlumatları vaxtında aidiyyəti üzrə xidmətlərə ötürür. Bölük komandiri gün ərzində hərbi qulluqçuların xidmətlərinin nəzarətdə saxlanılması məqsədilə taqım komandirləri tərəfindən bir neçə dəfə qəfləti olaraq yoxlanıldığını nəzərə çatdırdı.

Bir sözlə, təminat bölüyü həvalə olunmuş tapşırıqların öhdəsindən layiqincə gəlir və bölükdə kollektivçilik ab-havası hökm sürür.

baş leytenant T.Əlizadə

ŞƏXSİ HEYƏT YÜKSƏK PEŞƏKARLIQ NÜMAYİŞ ETDİRDİ

Bu gün ölkəmizdə idmanın inkişafı günü-gündən artmaqdadır. İdmanın bütün növləri üzrə dünya səviyyəsində artıq öz sözünü demiş Azərbaycanda gənclərin futbola olan marağı xüsusilə seçilir. Bu idman növü həm kütləviliyi ilə, həm də çılğın azarkeşləri ilə digərlərindən fərqlənir.

Azərbaycan futbol üzrə Premyer liqanın növbəti turunun mərkəzi oyunu Qəbələ rayonunda baş tutdu. "Qəbələ" və "Neftçi" futbol klubları üz-üzə gəldi. Avroliqalarda ölkəmizi dəfələrlə təmsil edən bu iki nəhəng klubun dəlisov tərəfdaş kütləsi var, eyni zamanda əzəli rəqib də hesab olunurlar. Oyunun gərgin idman şəraitində keçəcəyi əvvəlcədən bəlli idi. Təbii ki, burada ən vacib mə - qamlardan biri ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini idi. İctimai qaydanın qorunmasında polis əməkdaşlarına köməklik məqsədilə Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin hərbi qulluqçuları da iştirak edirdi. Məlumat üçün bildirək ki, şəxsi heyətin fəaliyyətinə 17071 saylı hərbi hissə komandirinin 1-ci müavini-Qərargah rəisi mayor Vüqar Novruzov rəhbərlik edirdi. Oyun başlamazdan öncə 10 nəfərdən ibarət mühendis-istehkam yarımqrupu tərəfindən azarkeş sektorlarında, mətbuat konfransı zalında, VİP otaqlarda partlayıcı qurğu və maddələrin, kəsici-deşici alətlərin olub-olmaması yoxlanıldı, habelə şübhəli və digər əşyalara qarşı müayinə tədbirləri həyata keçirildi. Sonra şəxsi heyət perimetr boyu müayyən olunmuş ərazini mühafizəyə götürdü. Bundan başqa, oyun zamanı baş verə biləcək hər hansı bir xoşagəlməz hadisənin qarşısının çevik surətdə alınması məqsədilə xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusu stadionun müəyyən edilmiş ərazisində ehtiyat qüvvə qismində yerləşdirildi.



Qeyd etmək lazımdır ki, oyun zamanı hər iki tərəfin çılğın azarkeşlərindən bir qismi stadiona daxil olmağa cəhd göstərdi. Lakin, şəxsi heyət yüksək döyüş hazırlığı nümayiş etdirərək onların qarşısını cəld, çevik və peşəkarlıqla aldı. Bir sözlə, bu sahədə kifayət qədər təcrübəyə malik olan Daxili Qoşunlar bir daha sübut etdi ki, hərbi qulluqçular hər an qarşıya çıxa biləcək tapşırıqları yerinə yetirməyə tam hazırdır.

baş leytenant T.Əlizadə

2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə Daxili Qoşunların Veteranlar Şurası sədrinin müavini Telman Aslanov və Veteranlar Şurasının üzvü, şair Elxan Xəzər 25031 saylı hərbi hissədə xidmətə yeni qəbul olunan əsgərlərlə görüşüblər. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtirama anılıb.

GƏNCLƏR GÜNÜNDƏ VETERANLAR XİDMƏTƏ YENİ QƏBUL OLUNAN ƏSGƏRLƏRLƏ GÖRÜŞDÜ

Daxili Qoşunların Veteranlar Şurası sədrinin müavini T.Aslanov şəxsi heyət qarşısında çıxış edərək, onları Azərbaycan Gəncləri Günü münasibətilə veteranlar adından təbrik edib. O, gənclərimizin milli müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda böyük fədakarlıqlar göstərdiyini vurğulayıb. Gənclər Gününün təsis edilməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu xatırladan T.Aslanov onun həmişə gənclərə diqqət və qayğı göstərdiyini bildirib. Ulu Öndər gənclərin dövlət quruculuğunda fəal iştirakına dəstək verib, onların fəaliyyətinin istiqamətləndirilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin yaradılması barədə sərəncam imzalayıb.

Ümummilli Liderin gənclər siyasəti Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasət ölkəmizdə gənclərin sosial problemlərinin həlline, təhsil səviyyəsinin inkişafına, ictimai mövqelərinin gücləndirilməsinə, cəmiyyətimizin bütün sferalarında gənc kadrların irəli çəkilməsinə, gənclər arasında idman hərəkatının geniş vüsət almasına əsaslı təkan verib.

T.Aslanov gənclərimizin böyük bir qisminin ordu sıralarında, o cümlədən Daxili Qoşunlarda hərbi xidmətdə olduğunu qeyd edərək, vətənə, dövlətçiliyə sədaqətli olan, vətənpərvərlik əqidəsini uca tutan bu oğullarla xalqımızın qürur duyduğunu nəzərə çatdırıb.

Veteranlar Şurasının üzvü, şair Elxan Xəzər öz çıxışında Daxili Qoşunların şərəfli döyüş yolundan, şərəfli hərbi qulluqçularından danışıb. O, Daxili Qoşunların şəxsi heyətinin şücaət nümunələrinin bugünkü gənclərə dəyərli örnək olduğunu vurğulayıb.

Veteran öz əsərlərində gənclərin hünərini, müharibə sınaqlarında düşmənlə ölüm-dirim mübarizəsini, əsgəri qardaşlığı, gənclik həyatının müxtəlif məqamlarını vəsf etdiyini, Azərbaycan gəncləri-nin müxtəlif sahələrdə qazandığı uğurları mövzusunu yaradıcılığında xüsusi diqqət mərkəzində saxladığını deyib. O, qələmə aldığı şeirlərdən parçalar səsləndirib.

E.Xəzər genc əsgərlərə hərbi xidmətlə bağlı tövsiyələrini də bildirib, Daxili Qoşunların yerinə yetirdiyi vəzifələrin dövlətçiliyimiz üçün əhəmiyyətinə toxunub, hərbi qulluqçu üçün mənəvi-psixoloji hazırlıq amilinin roluna dair fikirlərini bölüşüb.

Tədbirin sonunda veteranlar əsgərlərin Daxili Qoşunların döyüş yolu və bu günkü həyatı barədə suallarını cavablandırıblar.

Yalçın Abbasov

Şəhidlərimiz

OĞLU COCUQ MƏRCANLIDA ŞƏHİD OLMUŞ ANANIN ÜRƏK SÖZLƏRİ...

Doğma yurd-yuvalarından didərgin salınmış soydaşlarımız artıq geri qayıtmağa hazırlaşırlar. Azərbaycan Prezidenti İlham Əliyevin "İşğaldan azad edilmiş Cabrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncamı Ermənistan üzərində qazandığımız qələbəni daha da yaxınlaşdırdı.

Azərbaycan Prezidentinin bu sərəncamına, deyərdim ki, Cocuq Mərcanlı kəndinin sakinləri qədər mən də sevindim. Çünki oğlum Faiq Rzayev 1994-cü ildə Cocuq Mərcanlı kəndinin erməni silahlı qüvvələrindən azad edilməsində qəhrəmanlıq göstərmiş, son damla qanına qədər vuruşmuş və düşmən ərazilərimizdən qovulmuşdur. Oğlum II Şəhidlər xiyabanında dəfn olunub. 2014-cü il martın 8-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhid oğlum Faiq Rzayev "İgidliyə görə" medalı ilə təltif olunub. Dövlət başçısının bu sərəncamı 8 Mart - Beynəlxalq Qadınlar Günündə mənə ən böyük hədiyyə oldu. Həyatım boyu belə qiymətli hədiyyə almamışdım. Sevincimin həddi-hududu yox idi. Həmin medal Daxili Qoşunların rəhbərliyi tərəfindən şəhid anası kimi mənə təqdim olundu.

İndi sevincimin üstünə daha biri əlavə olunub. Oğlumun qanı tökülən Cocuq Mərcanlı kəndi bərpa olunur, artıq bu kənddə abadlıq işlərinə başlanılıb. Sevinirəm ki, bütün bunlarda mənim də oğlumun zəhmətі var.

Faiq Rzayev 1993-cü ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında hərbi xidmətə başlayıb. Həmin vaxt erməni silahlı qüvvələri Azərbaycan ərazilərini işğal edir, cəbhədə qanlı döyüşlər gedirdi. Ölkədə yaranmış özbaşınalıq, ordudakı intizamsızlıq, anarxiya bizi hər addımbaşı məğlubiyyətlə üzləşdirirdi. Hər gün cəbhədən xoşagəlməz xəbərlər eşidirdik. Əsgər analarının qulağı səsdə, gözləri yolda idi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana yenidən rəhbərlik etməsi ümidlərimizi artırdı. Bizi bir qədər rahatlaşdırdı.

Şəhid Faiq Rzayev

1994-cü ildə işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda genişmiqyaslı tədbirlər başlananda oğlum Faiq də Daxili Qoşunların tərkibində ən qaynar nöqtəyə-Füzuli rayonuna getdi. Rayonun Əhmədalılar, Arayatlı, Qazaxlar kəndlərinin, Horadiz şəhərinin düşməndən azad edilməsində mərdliklə vuruşdu. Oğlum boylu-buxunlu və təcrübəli olduğundan, onu kəşfiyyat qrupuna daxil etmişdilər. 1994-cü ildə kəşfiyyat qrupunun 6 üzvü düşmənin mövqeyini öyrənmək üçün Cabrayıl rayonunun Cocuq Mərcanlı kəndinə göndərilir. Həmin vaxt ermənilər bu kəndi işğal altında saxlayırdılar. Kəşfiyyat qrupu düşmənin mövqeyini öyrənib geri qayıdanda mühasirəyə düşüb və əsgərlərimiz sahərə qədər ermənilərlə vuruşublar. Sonra ordumuz Cocuq Mərcanlıya daxil olub. Kəşfiyyatçılarımızdan 4-ü yerindəcə həlak olmuşdu, ikisi isə ağır yaralanmışdı. Onları təcili qospitala çatdırsalar da, həyatlarını xilas etmək mümkün olmamışdı. 1994-cü il martın 21-də Faiq Rzayev gözlərini əbədi yumdu. Ancaq onun qanı yerdə qalmadı. Çünki artıq Cocuq Mərcanlı düşmənden azad olunmuşdu.

Oğlum Bakı şəhəri Yasamal rayonundakı 150 nömrəli tam orta məktəbin məzunu olub. Bu gün 150 nömrəli tam orta məktəb şəhid Faiq Rzayevin adını daşıyır.

Sonradan Cocuq Mərcanlıda şəhid olmuş kəşfiyyatçıların valideynləri ilə birlikdə həmin kəndə yollandıq. Uşaqlarımızın qanı tökülmüş yeri bizə göstərdilər. Dedilər ki, 6 nəfər kəşfiyyatçı Cocuq Mərcanlının azad olunmasında qəhrəmanlıq göstərib və ermənilər qorxularından kənddən qaçıblar. Mən həmin yeri dəfələrlə ziyarət etmişəm.

Cocuq Mərcanlıda aparılan abadlıq və yenidənqurma işləri məni hədsiz dərəcədə sevindirir. Neçə illərdən bəri gözlədiyim gün, nəhayət, yetişdi. Ümid edirəm ki, abadlıq və yenidənqurma işlərində bu kəndin azadlığı uğrunda canını qurban vermiş 6 kəşfiyyatçının qanının töküldüyü yerdə onların şərəfinə abidə qoyulacaq və hər birinin adı bu abidənin üzərinə həkk olunacaq.

Ruxsarə MƏMMƏDOVA,
şəhid anası, dəmiryolçu

("Xalq qəzeti", 3 fevral, 2017-ci il)

DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ƏSGƏRLƏRİN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Fevralın 11-də Daxili Qoşunların "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Şirin Xəlilov, Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov, Veteranlar Şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi-göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

Hərbi hissə komandiri polkovnik Səlamat Cəfərov çıxış edərək, əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, ələcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Xidmətə yeni qəbul edilmiş əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının hərbi andiçmə mərasimində əsgərlərə ünvanladığı təbrik çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların Qoşunların bütün şəxsi heyəti kimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları qeyd edilib. Məktubda, həmçinin, Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Sıralarımıza daxil olan hər bir gəncin Vətənə sədaqətlə xidmət edəcəyinə, xidmətidöyüş tapşırıqlarının keyfiyyətlə yerinə yetirilməsinə öz fədakar xidmətini əsirgəməyəcəyinə, Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacağına, dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişaf və tərəqqisi naminə uğurlar əldə edəcəyinə əminlik ifadə olunub.



Daha sonra təbrik və tövsiyələrini çatdırmaq üçün söz general-mayor Ş.Xəlilova verilib. General-mayor Ş.Xəlilov diqqətə çatdırıb ki, torpaqları düşmən tapdağı altında qalan Vətənin hər bir əsgəri respublikamızın ərazi bütövlüyünü bərpa etməyə hər an hazır olmalı, Vətən, xalq qarşısında müqəddəs borcunu ləyaqətlə yerinə yetirməlidir.

Çıxış edən Veteranlar Şurasının üzvləri, əsgər valideynləri də xidmətə yeni qəbul edilmiş əsgərləri səmimi qəlbdən təbrik edərək onlara xidmətlərində müvəffəqiyyətlər arzulayıblar. Qeyd olunub ki, hərbi andı qəbul edən hər bir hərbi qulluqçu birmənalı olaraq dərk etməlidir ki, Vətənə, millətə, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir.

Mərasim şəxsi heyətin sıra meydanından təntənəli keçidi ilə başa çatıb.

Mətbuat xidməti

Vətənpərvər gənclər üçün doğru seçim:

Daxili Qoşunların Ali Hərbi Məktəbi

Daxili Qoşunlarda hərbi xidməti cəlbedici edən xüsusiyyətlər

Azərbaycan gəncləri vətənpərvərlik əqidəsinin daşıyıcılarıdırlar. Milli müstəqilliyimiz, dövlətçiliyimiz və ərazi bütövlüyümüz uğrunda on minlərlə azərbaycanlı gənc fədakarlıq göstərib, ağır sınaqlardan keçib və həyatlarını qurban veriblər. Gənclərimiz milli ruhun qoruyucularıdırlar. Onlar cəmiyyətimizin bütün sahələrində ölkəmizin güclənməsi və tərəqqisi üçün layiqli töhfələr verirlər. Bu gün gənclərimizin böyük bir hissəsi hərbi xidmətdə vətən və dövlətimiz qarşısında övladlıq borcunu şərəflə yerinə yetirir. Azərbaycanın sərhədlərində və düşmənlə üzbəüz səngərlərdə igid gənclərimiz keşik çəkirlər.

Xalqımızın əmin-amanlığı və asayişinin qorunmasında xüsusi rolu olan Daxili Qoşunların da sıralarında hərbi andına sadiq, üreyi vətən sevgisi ilə döyünən, hərbçi şərəfini uca tutan, dövlət mənafeyi naminə üzərinə düşən vəzifələri əzmlə yerinə yetirən dəyanətli gənclər xidmət edirlər. Onlar Daxili Qoşunların şərəfli ənənələrini yaşadır, qəhrəmanlıq nümunələri əsasında döyüşçü məsləyinin daşıyıcısına çevrilirlər. Bizim sıralarımızdakı gəncləri əsgəri qardaşlıq hissləri birləşdirir. Hərbi qulluqçularımızın nizam-intizamı, qanunlara hörmət ruhunda tərbiyə olunması, döyüş qabiliyyəti, hərbi billiklərini təkmilləşdirmək bacarığı rəğbət və qürur hissi doğurur.

Daxili Qoşunlar müharibə sınaqlarında bərk salnaməmizə hünər nümunələri ilə izini qoymuş hərbi qurumdur. Ölkəmizdə yeganə hal olaraq, məhz vətən qarşısında döyüş xidmətləri nəzərə alınmaqla, Daxili Qoşunlar günü şəxsi heyətin döyüş yoluna başladığı gün seçilib. Bununla yanaşı, respublikamızda döyüş bayraqları ilk təqdim olunan qoşun növlərindən biri də məhz Daxili Qoşunlardır.

Şəxsi heyət ölkəmizin inkişafının və təhlükəsizliyinin mühim faktorlarından olan daxili sabitliyin qorunması naminə də qətiyyət və cəsurluq nümunələri göstərmişdir. Ayrı-ayrı bölgələrdə silahlı cinayətkar dəstələrin, ekstremist ünsürlərin, terrorçuların zərərsizləşdirilməsi, paytaxt və rayonlarda ictimai asayişin kütləvi şəkildə pozuntusunun qarşısının alınması, respublikamız üçün mühüm tədbirlərdə təhlükəsizliyin təmin olunması, təbii fəlakətlər və texnogen qəzaların ağır nəticələrinin aradan qaldırılması zamanı Daxili Qoşunların hərbi qulluqçuları ekstremal şəraitlərdə, fövqəladə vəziyyətlərdə peşəkarcasına fəaliyyət göstərə bildiklərini dəfələrlə sübut etmişlər.

Bütün bu uğurların əldə olunması və davamlı şəkildə qorunub saxlanması hissə və bölmələrin mükəmməl idarə edilməsi, bütövlükdə şəxsi heyətə bacarıqlı rəhbərlik sayəsində gerçəkləşib. Bu baxımdan hər bir qoşun növündə olduğu kimi, Daxili Qoşunlarda da zabitlər aparıcı qüvvədir. Daxili Qoşunların zabiti dediklə döyüşdə öndə gedərək əsgərlərini vuruşmağa ruhlandıran, sayca üstün olan terrorçuların basqını ilə üzləşdikdə büdrəməyən və son nəfəsinədək ləyaqətini qoruyub saxlayan, müxtəlif vəziyyətlərdə, təbii fəlakətlər, texnogen qəzalar, yanğınlar zamanı heç bir təhlükəni düşünmədən vətəndaşları xilas edən, beynəlxalq xarakterli hərbi təlim və kurslarda, hərbi təhsil mərkəzlərində öz azmkarlığı ilə birincilik qazanmağa müvəffəq olan, olimpiya oyunlarında Azərbaycan bayrağını qalibiyyət zirvəsinə qaldıran bir müsbət obrazı görürük. Belə zabitlər nəinki tabeliyindəki şəxsi heyətə, ələcə də bütün gənclərimizə örnəkdir.

Daxili Qoşunların zabitlərinin fəaliyyət dairəsi çoxfunksionaldır. Ölkəmizin daxili təhlükəsizliyindən irəli gələn geniş vəzifələrlə yanaşı, vətənin müdafiəsində iştirak etməyə həmişə hazır olmaq Daxili Qoşunların hər bir hərbi qulluqçusundan, o cümlədən zabitlərindən yüksək dərəcədə peşəkarlıq tələb edir.

Fəaliyyət prosesində ayrı-ayrı hüquqmühafizə orqanları ilə əməkdaşlıq, ictimaiyyətlə əlaqələr dəqiqlik, uzlaşdırma, ünsiyyət qurma bacarığı, qanunvericiliyin düzgün tətbiqi, etik davranış kimi keyfiyyətləri ön çəkir. Daxili Qoşunların xidməti cəmiyyətdə daha çox diqqət mərkəzindədir. Çünki Daxili Qoşunların yerinə yetirdiyi funksiyalar cəmiyyətin gündəlik həyatı, üzləşdiyimiz müxtəlif təhlükəsizlik qağrışları ilə bağlıdır. Vətəndaşlarımızın əmin-amanlığına hərəda təhlükə varsa, Daxili Qoşunlar oradadır.

Qeyd olunan bütün bu məqamları nəzərə alaraq, vurğulamaq istərdim ki, Daxili Qoşunlarda hərbi xidmət gənclər üçün gələcək həyatı baxımından zəngin və əvəzsiz təcrübə deməkdir. Zabit peşəkarlığı nöqteyi-nəzərindən isə çoxcəhətli üstünlükləri formalaşdırır.

Daxili Qoşunlar öz fəaliyyətində şərəfli ənənələrə sadiq qalaraq, vətənpərvərlik və peşəkarlıq cəhətlərini üstün tutaraq, zabit kadrlarının hazırlanmasına da bu prizmadan yanaşır. Artıq bir neçə ildir Daxili Qoşunların Ali Hərbi Məktəbi fəaliyyət göstərir. Ali Hərbi Məktəbin fəaliyyət müddəti qısa dövrü əhatə etsə də, formalaşdığı mərhələlərdə hərbi təhsil, hərbi təhsilin təhsilləndirilməsi, ixtisasartırma yönündə zəngin təcrübə toplayıb. Xarici həmkarlarla tədris-təlim sahəsində səmərəli təcrübə mübadilələri də Ali Hərbi Məktəbin potensialını artırıb. Bu faktorlardan əlavə, Ali Hərbi Məktəbdə müasir standartlara cavab verən tədris bazasının mövcudluğu da hərbi təhsilin yeni formatının reallaşdığını göstərir. Gənclər hərbi təhsil almaq üçün Daxili Qoşunların Ali Hərbi Məktəbini seçməklə gələcək həyatını dövlətçiliyimizin, xalqımızın dinc həyatının qorunmasına bəsr edəcək. Bu mühüm missiyanı yerinə yetirmək hər bir gənc üçün böyük şərəfdir.

Yalçın Abbasov